# AZƏRBAYCAN RESPUBLIKASININ SƏHIYYƏ NAZIRLIYI

## ƏMR

**№ 82** **10.10.2019-cu il**

**“İlkin səhiyyə xidmətində klinik protokolların tətbiqi barədə”**

Azərbaycan Respublikasında ilkin şəhiyyə xidmətində çalışan həkimlərin tibbi fəaliyyətində dünyanın qabaqcıl təcrübələrin tətbiqi və göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədi ilə “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, Səhiyyə Nazirliyinin tabeliyində olmayan tibb müəssisələrinin rəhbərlərinə tövsiyə edilsin ki, Finlandiyanın Tibb Cəmiyyətinin “Duodecim Publications” MMC-yə məxsus klinik protokollar ilkin səhiyyə xidmətləri göstərən tibb müəssisələrində 2019-cu ilin noyabr ayının 1-dən tətbiq edilsin.

2. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsədzadəyə tapşırılsın ki, klinik protokolların Səhiyyə Nazirliyinin rəsmi internet resursları vasitəsi ilə tibb mütəxəssislərin istifadəsinə verilməsi üçün müvafiq tədbirlər görülsün.

3. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Q.Haqverdiyevə tapşırılsın:

3.1. klinik protokolların orijinal mənbəyə uyğunluğu mütəmadi yoxlanılaraq onların yenilənməsi təmin edilsin;

3.2. klinik protokolların praktik tibb fəaliyyətində tətbiqi istiqamətində geniş maarifləndirmə işi aparılsın.

4. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrin icrası ilə bağlı maliyyə məsələlərin həll edilməsi təmin olunsun.

5. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Nadir Zeynalova həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**